2017-ci ilin yanvar-noyabr aylarında muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən aparılan ticarət əməliyyatları nəticəsində 415628,2 min ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi yaranmışdır. Xarici ticarət dövriyyəsinin 382549,3 min ABŞ dollarını yaxud 92 faizini ixrac, 33078,9 min ABŞ dollarını yaxud 8 faizini idxal təşkil etmişdir.

İdxalın həcmi son bir il ərzində 3,9 faiz azalmış, ixracın həcmi isə 1 faiz artmışdır. Ümumilikdə bu dövr ərzində 349470,4 min Amerika Birləşmiş Ştatları dolları həcmində müsbət saldo yaranmışdır.